DÖVLƏT VERGİ XİDMƏTİ

# Vergi ödəyicilərinin hüquq və vəzifələrində əlavə və dəyişikliklər edilmişdir

**Vergi Məcəlləsinə edilmiş dəyişikliyə əsasən 01.01.2022-ci il tarixdən etibarən**

- Mikro və kiçik sahibkarlıq subyektləri istisna olmaqla, istehsal fəaliyyəti ilə məşğul olan vergi ödəyiciləri tərəfindən istehsal olunan məhsulun vahidinə tələb olunan xammal və material sərfi normaları barədə **İqtisadiyyat Nazirliyi** tərəfindən təsdiq edilən məlumat hər il **yanvar ayının 31-dək** elektron qaydada vergi orqanına təqdim edilməlidir.

Nəzərə alın ki, istehsal prosesi ilə, o cümlədən yeni məhsul növünün istehsalına başlanılması ilə bağlı olaraq təqdim edilmiş məlumatda il ərzində dəyişiklik olarsa dəyişikliklə bağlı dəqiqləşdirilmiş məlumat təqvim ili ərzində vergi orqanına təqdim edilməlidir.

- Nəzarət olunan xarici müəssisə haqqında arayış İqtisadiyyat Nazirliyi tərəfindən müəyyən edilən formada mənfəət (gəlir) vergisi bəyannaməsi üçün nəzərdə tutulan müddətdə vergi orqanına təqdim edilməlidir.

* Qeyd: Arayışı müəyyən edilən müddətlərdə təqdim etməyən və ya arayışda düzgün olmayan məlumatlar göstərən vergi ödəyicisinə vergi orqanının rəhbərinin (onun müavininin) qərarına əsasən **2000 manat** məbləğində maliyyə sanksiyası tətbiq edilir.

**! Nəzərinizə çatdırırıq ki...**

**01.01.2022-ci il tarixdən** etibarən pərakəndə ticarət və (və ya) ictimai iaşə fəaliyyəti zamanı malların (işlərin, xidmətlərin) alıcılarına onların tələbinə əsasən nəzarət-kassa aparatının çeki ilə yanaşı **elektron qaimə-fakturanın** vergi ödəyicisi tərəfindən təqdim edilməsi tələbi ləğv edilmişdir.

**Vergi ödəyicilərinin hüquq və vəzifələri barədə ətraflı məlumatla “Vergi ödəyicisinin hüquq və vəzifələri” adlı bukletdən tanış ola bilərsiniz.**

**BAKI — 2022**

195

AZ1029, Azərbaycan, Bakı, Heydər Əliyev prospekti, 155
Tel.: (+994 12) 403 89 70; Faks: (+994 12) 403 89 71
E-poçt: office@taxes.gov.az

www.taxes.gov.az

- Vergi Məcəlləsi ilə müəyyən edilmiş hallarda və qaydada vergi orqanlarına və onların vəzifəli şəxslərinə zəruri olan kağız və elektron daşıyıcılarda olan məlumatları və sənədləri (orta və iri sahibkarlıq subyektləri, eləcə də maliyyə hesabatlarını), habelə mühasibat uçotu elektron formatda aparıldığı halda, özünün, filiallarının və digər struktur bölmələrinin elektron daşıyıcılarında olan məlumatlara və uçot bazalarına birbaşa və ya məsafədən çıxış imkanı yaratmaqla, həmin məlumatları vergi orqanının tələbi ilə təqdim etmək vergi ödəyicisinin vəzifəsidir.

✻ Qeyd: Yuxarıda göstərilən məlumat formasının müəyyən edilmiş müddətdə təqdim edilməməsinə və ya təqdim edilmiş məlumat formasında təhrif olunmuş məlumatların göstərilməsinə, vergi hesabatı təqdim edilərkən vergi orqanının tələbi ilə maliyyə hesabatlarının təqdim edilməməsinə və digər tələblərə əməl edilməməsinə görə vergi ödəyicisinə **1000 manat** məbləğində maliyyə sanksiyası tətbiq edilir.

- ƏDV-nin məqsədləri üçün qeydiyyata alınmış vergi ödəyiciləri Vergi Məcəlləsinin 149-cu maddəsində nəzərdə tutulan müddətlərdə təqdim etdikləri bəyannamələrlə eyni gündə vergi ili üzrə kreditor və debitor borcları barədə forması İqtisadiyyat Nazirliyi tərəfindən təsdiq edilən məlumatı elektron qaydada vergi orqanına təqdim edir.

Qeyd: Kreditor və debitor borcları barədə məlumat formasının təqdim edilməməsinə görə vergi ödəyicisinə vergi orqanının rəhbərinin (onun müavininin) qərarına əsasən **100 manat** məbləğində maliyyə sanksiyası tətbiq edilir.

- Vergi orqanında uçotda olmayan fiziki şəxslərdən alınmış mallara görə alış aktı və "Avtomobil nəqliyyatı haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq avtomobil nəqliyyatı vasitəsilə əmtəə təyinatlı yüklərin daşınmasına görə elektron əmtəə-nəqliyyat qaiməsi və yük avtonəqliyyatı üçün elektron yol vərəqi tərtib edilməlidir.

✻ Qeyd: “Elektron əmtəə-nəqliyyat qaiməsi və yük avtonəqliyyatı üçün elektron yol vərəqi” Nazirlər Kabineti tərəfindən təsdiq ediləcək elektron əmtəə-nəqliyyat qaiməsinin və yük avtonəqliyyatı üçün elektron yol vərəqinin forması, tətbiqi, uçotu və istifadəsi qaydası ilə eyni gündə qüvvəyə minir.